**Yerdə qalan abzasları tərtib edin.** Faktları əhəmiyyət dərəcəsinə görə qruplaşdırın (vacib olanlar, kontekst, uzaq kontekst). Onları yenidən yazın, mətni uzlaşdırın, təkrarlardan və qeyri-müəyyən yerlərdən təmizləyin. Qısa xəbər hazırdır – işin ən əsas tərəfi görülüb.

Məişət tullantıları zavodunun tikintisi üçün Məmmədli kəndinin ərazisi müəyyən olunub, fevralın 15-də icra başçısı Həsən Məmmədov Nərimanabad sakinləri ilə görüşdə belə deyib. Onun sözlərinə görə, həmin ərazidə bağ sahələri olsa da, ərazi zavod üçün yeganə münasib yerdir.

VACIB OLAN

h — Məmmədli kəndi Ağgöl qoruğundan kifayət qədər uzaqda yerləşir, burada qorunan ərazilər, eləcə də iri kənd təsərrüfatı obyektləri yoxdur.

g — «Çox çətin qərardır,» – icra hakimiyyətinin mətbuat xidmətinin açıqlamasına görə icra başçısı məsələni belə şərh edib, amma tikintini

j — daha da uzatmaq olmaz,

i — çünki zavod «günü-gündən abadlaşan» rayon üçün vacibdir.

KONTEKST

c — Zavodun tikiləcəyi ərazinin seçilməsi iki ilə yaxın vaxt aparıb və Həsən Məmmədovun bildirdiyinə görə

b — fevralın 14-də

a — hökumət öz «yekun qərarını» qəbul edib.

UZAQ KONTEKST

d — İcra başçısı Nərimanabad sakinləri ilə yerli «Cəsurlar» klubunda görüşüb.

f — Sakinlərdən biri zavodun ətraf evlərə və bağlara nə dərəcədə təhlükə törədəcəyi haqda sual səsləndirib və

e — icra başçısı hökumətin qərarı barədə son məlumatı bu suala cavab verərkən açıqlayıb.